*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 iyul 2017-ci il № 50 (2167) Qiyməti 25 qəpik


## Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq, 2017-ci il iyulun 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Həmin sənədə uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2017-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılırlar.

Qeyd edək ki, Prezident İlham Əliyev 2017-ci il mayın 31-də Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

## Silahlı Qüvvələrə Yardım Fonduna 83 milyon manatdan çox vəsait yığılıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyulun 1-dək 83.397.952,17 manat, 212.873,88 ABŞ dolları, 7436,0 avro və 5000,0 rubl vəsait yığılıb.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Güclü ordu böyük gələcəyin təminatçısıdır



Bu gün müstəqil Azərbaycan təhlükəsizliyinin və ərazi bütövlüyünün tam təminatçısı olmaq, hər hansı bir düşmən hücumunu qətiyyətlə dəf edib, onun qarşısında möhkəm müdafiə istehkamları yaratmaq qüdrətinə malik, yüksək ixtisaslı peşəkar kadrlarla və hər cür müasir silahlarla komplektləşdirilmiş güclü orduya malikdir. Bu ordunun qurucusu adı Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş ümummilli liderimiz Heydər Əliyevdir.

Ümummilli Lider 1971-ci ilin aprelində gənclərimizin ali hərbi məktəblərə hazırlanması barədə xüsusi sərəncam imzalayır. Elə həmin il iyunun 20-də bu işdə əsas baza rolunu oynayacaq hərbi liseyin ilk bünövrəsi qoyulur. Liseyə xalqımızın sərkərdə oğlu, XX əsrin 30-cu illərində qırmızı terrorun qurbanı olmuş Cəmşid Naxçıvanskinin adı verilir. Təkcə elə bu faktın özü dahi rəhbərin imperiyanın ən sərt qanunları önündə belə, əsl azərbaycançılıq ideyalarına sadiqliyinin əyani nümayişi idi.

**(Ardı 3-cü səhifədə)**

# Müdafiə Nazirliyinin Baş İdarələrindən birinin yeni inzibati binasının açılışı olub



*Müdafiə Nazirliyinin Baş İdarələrindən birinin əsaslı təmirdən sonra inzibati binasının açılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə iştirak edən Müdafiə Nazirliyinin rəhbərliyinə məlumat verilib ki, yüksək texnologiyalı bütün kommunikasiya xətləri, yeni mebel və digər zəruri avadanlıqlarla təchiz edilmiş üç mərtəbəli bina inzibati, xidməti iş otaqlarından və konfrans zalından ibarətdir.



Mərasimdə Baş İdarənin fəaliyyəti və xidmətin təşkili ilə bağlı ətraflı brifinq təqdim olunub.

Tədbir iştirakçıları yaradılan şəraitdən məmnun qaldıqlarını, göstərilən diqqət və qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Nümunəvi xidmət

# “Şərəfli vəzifəmi yerinə yetirirəm”

*Ön xətdə xidmət edən əsgərlərimizlə söhbətləşəndə Lənkəran rayonundan orduya çağırılan təcrübəli əsgər Murad Nəsirli ilə tanış oldum. Öyrəndim ki, zəhmətkeş bir ailədə təlim-tərbiyə görmüş gəncin hərbi xidmətini başa vurmasına sayılı günlər qalıb. Bu məqsədlə onunla söhbətimə "Hərbi xidmət sənə nə verdi?" sualı ilə başladım.*



- 15 aydır ki, doğulub boya-başa çatdığım bir məkandan dağların qoynuna, Vətənimizin keşiyində dayanmağa gəlmişəm, - deyir əsgər. - Bəlkə də bəzilərinə elə gəlir ki, ön xətdə xidmət etmək çətindir, amma belə deyil. Vətən keşiyində durmaq şərəflidir. İstiyə-soyuğa məhəl qoymadan Vətən sevgisi ilə düşmənin gözünə dik baxırıq, çünki ürəyimizdəki Vətən sevgisi bizə güc, qüvvə verir. Elə buna görə də bütün çətinliklərə sinə gəririk. Əslində, cəbhədə xidmət etmək həyatda vacib olan mənəvi keyfiyyətlər aşılayır. Vətən torpağının hər qarışının nə demək olduğunu anlayır, qorxmazlığı, mərdliyi öyrənirsən. Hərbi xidmətdən öncə, “ordu kişilik məktəbidir” ifadəsini tez-tez eşidirdim. Həqiqətən də belədir, burada nizam-intizamlı olmaq, hərbi qaydalara riayət etmək, döyüş növbətçiliyində düşmənlə üz-üzə, qəhrəmancasına dayanmaq lazımdır.

Baş leytenant Turab Kərimov tabeliyində olan təcrübəli əsgər haqqında ürəkdolusu danışdı. Qeyd etdi ki, nizam-intizamlı, xidmətini düzgün qurmağa çalışan, silahların sirlərini bilib, tutduğu vəzifənin öhdəsindən layiqincə gələn bir əsgərdir. "Doğrudur, Murad Nəsirlinin xidmət müddətini başa vurmasına az qalıb, lakin döyüş olarsa, bizimlə çiyin-çiyinə döyüşəcəyinə söz verib".

Ulu öndər Heydər Əliyev deyirdi: "Orduya çağırılan gənclər bilməlidir ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar. O gənclərin valideynləri bilməlidirlər ki, onların övladları ölkə, dövlət qarşısında öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirməlidirlər". Böyük həqiqətdir, doğrudan da, ürəyində Vətən sevgisi olan hər bir gənc Vətən keşiyində durmağa can atmalı, torpaqlarımızın düşməndən azad edilməsinə bir döyüşçü kimi hazır olmalıdır. Haqqında danışdığımız təcrübəli əsgər Murad Nəsirli də Ulu Öndərin kəlamlarını qürurla yaşadır, “Şərəfli vəzifəmi yerinə yetirirəm”, - deyir. Əlbəttə, inanmaq lazımdır ki, bu gün öz xidməti ilə hamının rəğbətini qazanan əsgər Nəsirli gələcək həyatında da Vətənə, xalqa, millətə layiqli vətəndaş olacaq!

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# Şəhid zabit Raquf Orucovun xatirəsinə həsr olunmuş futbol turniri keçirilir

Ağdam rayonunda ötən ilin aprelində Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində düşmənin təxribat cəhdlərinin qarşısını alarkən qəhrəmancasına həlak olan Azərbaycan Ordusunun zabiti polkovnik-leytenant Raquf Orucovun xatirəsinə həsr olunmuş futbol turniri keçirilir.

AZƏRTAC xəbər verir ki, yarışda rayonun 18 cəbhəyanı kəndini, 4 məcburi köçkün qəsəbəsini və ərazidə yerləşən “N” hərbi hissəsini təmsil edən 12 komanda iki qrupda mübarizə aparır. Qrupdaxili oyunların nəticələrinə görə birinci və ikinci yerləri tutan komandalar finalda qarşılaşacaq.

Turnir iyulun 12-də şəhid zabitin doğum günü başa çatacaq. Birinci, ikinci və üçüncü yerə çıxan komandalara kubok, medal, fəxri fərman və xatirə hədiyyələri təqdim ediləcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Əsgər valideynlərinə müraciət!

Hörmətli vətəndaşlar!

Hərbi qulluqçuların təhlükəsizliyi naminə telefon əlaqəsi və sosial şəbəkələrdən istifadə zamanı hərbi xidmət barədə müzakirələr aparmayın!

Hərbi hissə, onların yerləşmə yerləri, silah-sursatı, hərbi texnikası haqqında və hərbi qulluqçulara dair fotoşəkilləri paylaşmayın!

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 iyul 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan da (24 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 124 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Baş Qərvənd, Qaraqaşlı, Şirvanlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***4 iyul 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da (9 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 128 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şuraabad, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Güclü ordu böyük gələcəyin təminatçısıdır

(Əvvəli 1-ci səhifədə)

**Ümummilli lider Heydər Əliyev:**

*Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər.*



O vaxt Ulu Öndərin SSRİ-nin ali hərbi məktəblərində təhsil alan azərbaycanlı gənclərin sayının artırılmasına və azərbaycanlı zabitlərin yerləşdirilməsinə nail olması onun uzaqgörən siyasətinin nəticəsi olaraq bugünkü azad, müstəqil dövlətçiliyimizə hesablanmış uğurlu siyasət idi. Azərbaycanın imperiya əsarətindən sıyrılıb öz müstəqilliyinə qovuşacağına böyük inamdan və bu müstəqilliyi qorumaq üçün güclü ordunun zərurətindən yaranmış C.Naxçıvanski adına Hərbi Liseyin məzunları bu gün ordumuzun zabit heyətinin əsasını təşkil edir. Hərbi liseyin məzunları arasında erməni işğalçılarına qarşı döyüşlərdə göstərdiyi fədakarlığa və rəşadətə görə Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli ada layiq görülən neçə-neçə Vətən oğlu var. Həmin məktəbin məzunu olan onlarla zabit kursantlıqdan generaladək yüksəlib. Bütün bunlar Ümummilli Liderimizin ölkəmizin hərbi qüdrətini artırmaq sahəsindəki gərgin zəhmətinin və yüksək fədakarlığının əyani sübutudur.

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya ilə ölkə vətəndaşlarına müraciəti müasir ordu quruculuğu sahəsində əsaslı dönüşün başlanğıcı oldu. Ümummilli Liderin çağırışına cavab olaraq minlərlə azərbaycanlı gənc könüllü surətdə torpaqlarımızın düşmən işğalından qorunması naminə döyüşlərə atıldı. Ölkədə hərbi-siyasi vəziyyət elə həddə çatmışdı ki, ordu quruculuğu kimi strateji bir məsələ ilə tam şəkildə məşğul olmaq mümkünsüz idi. Atəşkəsə nail olmadan əsgərlərin hərbi vətənpərvərlik ruhunu artırmaq, torpaqlarımızı erməni faşizminin işğalından azad etmək, dünya standartlarına tam cavab verən güclü ordu yaratmaq asan məsələ deyildi. Ümummilli liderimiz Heydər Əliyev 1994-cü ilin əvvəllərində cəbhəyə yola düşən əsgərlərlə görüşündə deyirdi: "Unutmayın ki, hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durub. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, öz atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün cəbhəyə yola düşürsünüz. Sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə, ərazi bütövlüyünə kömək edəcəkdir". Ulu Öndərin gənclərə bu tarixi müraciəti onlarda yüksək vətənpərvərlik ruhu yaratdı, onların döyüş əzmini gücləndirdi. Strateji əhəmiyyətli məntəqələr düşmən işğalından azad edildi. Təcavüzkar Ermənistan 1994-cü il mayın 12-də atəşkəsi imzalamaq məcburiyyətində qaldı. Cəbhədə atəşkəsdən sonra həm iqtisadiyyatımızın, həm də ordu quruculuğunun kompleks şəkildə inkişafı üçün zəmin yarandı. Hərbi xidməti daha da təkmilləşdirmək məqsədilə güclü qanunvericilik bazası yaradıldı, bir sıra hüquqi-normativ aktlar qəbul olundu. Orduda nizam-intizam gücləndirildi. Silahlı Qüvvələrimiz dünya standartlarına uyğun olaraq vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi. Orduda sağlam mənəvi-psixoloji mühit yarandı. Silahlı Qüvvələrin maddi təminatı və təchizatı gücləndirildi. Hərbi təhsil sistemi və beynəlxalq hərbi əlaqələrimiz yenidən qurulub formalaşdı.

Hər il iyunun 26-da Silahlı Qüvvələr Gününün ümumxalq bayramı günü kimi qeyd olunması da məhz Ulu Öndərin adı ilə bağlıdır. 1998-ci il mayın 22-də ümummilli lider Heydər Əliyevin imzaladığı fərman ordu quruculuğunda da varislik ənənələrinin davam etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin, bu fərman milli-mənəvi dəyərlərimizə sədaqətin bariz nümunəsidir. Belə tarixi ənənələr üzərində yetişən əsgər və zabitlərimiz bu gün ata-babalarımızın yolunu ləyaqətlə davam etdirirlər.

Ulu öndər Heydər Əliyev 2003-cü il iyunun 26-da Silahlı Qüvvələrin şəxsi heyətinə müraciətlə deyirdi: "Azərbaycan Ordusu daim dövlət orqanlarının, bütün vətəndaşların diqqət və qayğısı ilə əhatə olunmalı, yeniyetmə və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi ön plana çəkilməlidir. Ədəbiyyat və incəsənət əsərləri, kütləvi informasiya vasitələri ilk növbədə hər bir azərbaycanlıda Vətənə məhəbbət, dövlətçiliyə sədaqət, Silahlı Qüvvələrə hörmət hissinin tərbiyə olunmasına yönəlməlidir. Bir sözlə, hər bir dövlət orqanı, respublikamızın hər bir vətəndaşı müstəqilliyimizin dönməz və əbədi olması, dövlətçiliyimizin daha da möhkəmlənməsi üçün əlindən gələni əsirgəməməli, ordu quruculuğu prosesinə öz layiqli töhfəsini verməlidir." Çünki Ulu Öndərin dediyi kimi, "Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 10 il, 100 il bundan sonra da lazımdır. Azərbaycan Ordusu, onun Silahlı Qüvvələri böyük gələcəyə baxmalıdır. Böyük gələcəyin təminatçısı isə yalnız güclü, sarsılmaz ordu ola bilər."

Bu gün Azərbaycanın bütün çətinlikləri müvəffəqiyyətlə dəf etmək qüdrətinə və çevik idarəetmə sisteminə malik güclü, sarsılmaz ordusu var. Ümummilli Liderimizin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuzun müasir dünya standartlarına tam uyğunlaşdırılması, onun daha güclü və müasir silahlarla təchiz edilməsi, orduya ayrılan xərclərin ilbəil artırılması, zabitlərin peşəkarlıq səviyyəsinin, döyüşçülərimizin mübarizə əzminin daha da gücləndirilməsini təmin edir. Əgər təcavüzkar Ermənistanın siyasi rəhbərliyi qeyri-konstruktiv siyasətindən əl çəkməsə, Vətənin etibarlı müdafiəçisi və polad dayağı olan ordumuzun qüdrəti ilə torpaqlarımız son qarışına qədər işğaldan azad ediləcəkdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda hava hücumundan müdafiə bölmələrinin döyüş atışlı taktiki təlimləri



*Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində hava hücumundan müdafiə bölmələrinin döyüş atışlı taktiki xüsusi təlimlərinə başlanılıb.*

Zenit-raket, zenit-raket artilleriya və Hava Hücumundan Müdafiə Qoşunlarının digər xüsusi bölmələrinin də cəlb olunduğu təlimlərə həyəcan siqnalının verilməsi, şərti hava düşməninin ilk zərbələrinin dəf edilməsi, idarəetmə və komanda məntəqələrində döyüş işinin aparılması ilə başlanılıb.

Motoatıcı bölmələrin yerdəyişməsi zamanı onların hava hücumundan müdafiəsini təmin edən hava hücumundan müdafiə bölmələri marş keçirərək təyinat rayonlarına çıxarılıb, atəş və start mövqeləri tutulub.

Bölmələr döyüş tapşırığı aldıqdan sonra hərbi qərar qəbuletmə prosesinə uyğun tapşırığın aydınlaşdırılması, vəziyyətin qiymətləndirilməsi, maket üzərində qarşılıqlı əlaqə və hava hücumundan müdafiə tapşırıqlarının yerinə yetirilməsinə dair qərar qəbul olunub. Marş zamanı yerdəyişmə həyata keçirən bölmələrə şərti düşmənin basqını dəf edilib, kolonların təyinat rayonlarına təhlükəsiz hərəkəti təmin edilib.

Təlimin döyüş atışlı mərhələsində hərəkətdən atəş və start mövqeləri tutulduqdan sonra düşmənin hava və yerüstü hədəfləri "Strella 3" daşınan zenit-raket kompleksi və 23 millimetrlik zenit qurğuları ilə məhv edilib. Təlimlərə hava düşmənini təqlid edən 120 millimetrlik minaatan heyətləri də cəlb olunub.



Döyüş atışlı taktiki xüsusi təlimlər bir daha təsdiqləyir ki, Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə hissə və bölmələri Naxçıvan Muxtar Respublikasının hava sərhədlərini etibarlı surətdə qoruyur və düşmənin hava hücumunun dəf edilməsinə hər an hazırdır.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**fotolar**
**əsgər**
**Rasim İSMAYILLININDIR**



# Belqradda “Faşizmsiz dünya uğrunda mübarizənin əsas metodları” mövzusunda beynəlxalq konfrans keçirilib

*Bosniya və Herseqovinanın paytaxtı Belqradda "Faşizmsiz dünya uğrunda mübarizənin əsas metodları" mövzusunda beynəlxalq konfrans təşkil edilib. Tarixi, mədəni irsin qorunması və saxlanılması missiyasını başlıca fəaliyyət məqsədi sayan "Qələbənin varisləri" beynəlxalq birliyin təşkil etdiyi konfrans İkinci Dünya müharibəsinin 75 illiyinə həsr olunub.*

Respublika Veteranları Təşkilatından AZƏRTAC-a bildiriblər ki, 20-dən çox ölkədən yüksək vəzifəli nümayəndə heyətlərinin, o cümlədən iki ölkənin prezidentinin qatıldığı konfransda Azərbaycanı Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov təmsil edib.

Tədbirdə "Veteranların müdrikliyi müharibə və faşizmə sipərdir" adlı məruzə ilə çıxış edən C.Xəlilov Azərbaycanın faşizmə qarşı mübarizədə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, İkinci Dünya müharibəsi xalqımızın şanlı tarixinin bir parçasıdır. Həmin müharibədə Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük fədakarlıqlar, əvəzsiz xidmətlər göstərib. Azərbaycan neftinin qələbədəki payı xüsusilə böyük olub. Bu gün həmin Qələbənin canlı yaddaşı veteranlardır. Əbədi fəxrimiz olan veteranlar ölkə rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunublar.



C.Xəlilov qonaqların diqqətini Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü pozmasına, 25 ilə yaxın müddətdə BMT-nin qəbul etdiyi dörd qətnamənin bu ölkə tərəfindən bu günədək icra olunmamasına yönəldib. O, bu faktı faşizmin dirçəldilməsinin bariz nümunəsi kimi dəyərləndirib, tarix beşiyimiz olan Qarabağın hələ də işğal altında saxlanması və milli-mədəni sərvətlərimizin talan olunmasını böyük təəssüf hissi ilə diqqətə çatdırıb. Eyni zamanda, Ermənistanda nasizmə xidmət edənlərə son illərdə abidə ucaldılmasını ciddi tənqid edərək deyib: "Biz nasistlərlə əlbir olanların qəhrəmanlaşdırılmasının əleyhinə çıxmalıyıq. Artıq bir neçə ildir ki, müasir erməni faşistləri öz sələflərinin, İkinci Dünya müharibəsində alman faşizminə xidmət göstərmiş cəlladlar, erməni qisasçı legionlarına rəhbərlik etmiş Qaregin Njde və general Dronun genişmiqyaslı təbliğatı ilə məşğul olurlar. Ermənilər bədnam niyyətlərinin həyata keçirilməsində hər vasitəyə əl atır, hətta qonşu ölkələrin mətbuatının imkanlarından istifadə etməkdən belə çəkinmirlər. Vaxtılə Qarabağda və Zəngəzurda azərbaycanlılara qarşı qırğınlar törətmiş Njde kimi faşist başkəsənlərinin bəraətinə xidmət edən bu təbliğatda o dərəcədə ifrata varılır ki, cəlladlar qəhrəman səviyyəsinə yüksəldilir. Ermənilərin bəşəriyyətin məhvinə çalışan, milyonların cəlladları olanlara abidə ucaltmaları hiddətləndiricidir. İkinci Dünya müharibəsi tarixinə adları nasistlərlə birgə kütləvi qırğınların törədiciləri sırasına yazılmış bu qaniçənlər faşizmə xidmət etdikləri üçün qınaq obyekti olmalı, lənətlə xatırlanmalıdırlar".

Respublika Veteranlar Təşkilatının sədr müavini Azərbaycanda heç zaman dini, irqi ayrı-seçkiliyə yol verilmədiyini, xalqımızın tolerantlığının dünya tərəfindən qəbul edilən reallıq olduğunu əminliklə bildirib. O, Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində qeyd olunan ənənələrin dövlət siyasəti səviyyəsinə qaldırılmasından və həyat tərzinə çevrilməsindən bəhs edərək konfrans iştirakçılarını bunun bariz nümunələri ilə tanış edib.

Azərbaycanda yaşayan bütün xalqların hüquq bərabərliyinin təmin edilməsi, müxtəlif dinlərə etiqad edən insanların etnik-mədəni və dini dəyərlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində görülən tədbirləri qeyd edən natiq müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələrinin bir arada harmonik mövcudluğunun dünya üçün nümunə olduğunu vurğulayıb.

Konfransda digər ölkə nümayəndələrinin də çıxışları dinlənilib, faşizmsiz dünya uğrunda mübarizənin metodlarından bəhs olunub.

# Tariximiz, mənəvi dəyərlərimiz təbliğ olunur

*Cəbhə xəttindəki bölmənin əsgər yataqxanasında olarkən ideoloji guşə diqqətimi çəkdi. Hələ dəhlizdə aprel döyüşləri qəhrəmanlarının və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların foto guşələri bölmədə ideoloji, təbliğat və təşviqat işinin yüksək səviyyədə aparıldığını göstərirdi. Bu isə şəxsi heyətə döyüş ruhu və vətənpərvərlik hissləri aşılanmasında böyük rol oynayır.*

Bölmənin sinif otağına daxil olduqda əsgərlərin mənəvi-psixoloji hazırlığını yüksəltmək üçün görülən işlərlə tanış oldum. Yüksək tərtibatla hazırlanmış otaqda zabit bir qrup əsgərə ictimai-siyasi hazırlıq dərsi keçirdi. Sinifdə Azərbaycan Silahlı Qüvvələrinin yaranması və inkişafı tarixini, hərbi hissənin yaranma tarixini, Hərbi andı, ulu öndər Heydər Əliyevin ordu quruculuğunda xidmətlərini, Ali Baş Komandanın və Müdafiə nazirinin əsgərlərlə görüşlərini əks etdirən eksponatlar göz oxşayırdı.

Baş leytenant Elsevər Həsənov "Azərbaycan Ordusu" qəzetində mövzuya aid yazıları oxuyurdu. Əsgərlər isə onu maraqla dinləyirdilər. "Əsgərlər təkcə ictimai-siyasi hazırlıq vaxtlarında deyil, asudə vaxtlarında da qəzet və hərbi jurnalları vərəqləyir, maraq doğuran yazıları oxuyurlar", - deyir zabit. O, 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində ordu quruculuğu, Azərbaycan Ordusunun yaranması və inkşafı mövzularında ictimai-siyasi hazırlıq məşğələlərinin təşkil olunduğunu deyir:

- Əsgərlərə hələ 1918-20-ci illərdə ilk ordu hissələrinin yaranmasından, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi müxtəlif illərdə ordu quruculuğunun inkişafı məqsədilə həyata keçirdiyi uğurlu islahatlardan və müasir dövrdə Azərbaycan Silahlı Qüvvələrinin möhkəmləndirilməsi istiqamətində görülən işlərdən geniş məlumat verilir. Silahlı Qüvvələrimizin keçdiyi tarixi yoldan söz açarkən hərb tarixinə adları qızıl hərflərlə yazılmış sərkərdələr - Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov, Həzi Aslanov kimi generallarımız haqqında danışırıq. Həmçinin dərsin sonunda Ali Baş Komandanın və Müdafiə nazirinin cəbhə bölgələrində əsgərlərlə görüşləri, aprel döyüşlərində şücaət göstərmiş hərbi qulluqçuların mükafatlandırılması qeyd olunur, Silahlı Qüvvələrdə keçirilən taktiki təlimləri əks etdirən video-çarxlar nümayiş etdirilir.



Zabitin sözlərinə görə, mənəvi-psixoloji hazırlıq əsgərin döyüş qabiliyyətinə təsir edən əsas amildir. Ona görə də ordu quruculuğunda əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılması məsələsinə ciddi diqqət yetirilir. Hərbi hissələrdə ictimai-siyasi hazırlıq dərsləri təşkil olunur, hərbi qulluqçulara vətənpərvərlik, qəhrəmanlıq, dövlətçilik və müstəqillik hissləri təbliğ olunur. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına ciddi diqqət göstərilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu mənəvi dəyərlərə sədaqətli, Vətən sevgisinin, düşmənə nifrət hissinin nə olduğunu dərk edən vətənpərvər əsgərləri öz sıralarında birləşdirir. Onların hər biri torpaqlarımızı işğaldan azad etmək amalı ilə xidmət edir.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 4-də Füzuli rayonu Aşağı Veysəlli kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçirib.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçirib.

# Milli Məclisin deputatları Kiyevdə NATO PA-nın 95-ci Rouz-Rout seminarında iştirak edəcəklər

İyulun 3-dən 5-dək Kiyevdə NATO Parlament Assambleyasının 95-ci Rouz-Rout seminarı keçiriləcək. Seminarda Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Kamran Bayramov iştirak edəcəklər.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ukrayna Ali Radası ilə birgə keçiriləcək "Təhlükəsiz, sabit Ukraynaya doğru və Qara Dəniz regionu" adlı bu tədbir 6 sessiyadan ibarət olacaq. Sessiyalarda Rusiya, NATO və Qara Dəniz regionu, NATO-Ukrayna Xartiyasının 20 illiyi, Donbasda humanitar və hərbi vəziyyət, Krımda siyasi və insan hüquqları, Ukraynanın islahat gündəliyi və daxili çağırışlar, Ukrayna-NATO inteqrasiyası, Qara Dəniz regionunda inkişafın dəstəklənməsi, Moldovada siyasi və iqtisadi vəziyyət və digər mövzularda müzakirələr aparılacaq.

Milli Məclisin deputatları gündəlikdəki məsələlərlə bağlı çıxışlar edəcək, qeyd və təkliflərini bildirəcəklər.

Fiziki hazırlıq

# Fiziki hazırlıq da başlıca amildir



*Müasir dövrdə orduda döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hərbi qulluqçulardan yüksək nəzəri-praktik bilik və fiziki-psixoloji hazırlıq tələb edir. Döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaq və onlardan yüksək səviyyədə istifadə etməklə yanaşı, fiziki cəhətdən hazırlıqlı olmaq da tələb olunur. Elə buna görə də Silahlı Qüvvələrdə şəxsi heyətin fiziki hazırlığı vacib əhəmiyyət kəsb edir. Çünki fiziki hazırlıq hərbçiyə zəruri olan bacarıq və vərdişlərə yiyələnməsinə, dəyanətli, möhkəm və mətin olmasına, bütövlükdə əsgərlərə vətənpərvərlik, əxlaqi-iradi keyfiyyətlərin aşılanmasına şərait yaradır. Fiziki və mənəvi cəhətdən sağlam olan şəxsi heyətdə milli şüur və vətənpərvərlik hissləri daha səmərəli formalaşdırılır.*

"N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığı ilə maraqlandıq. Divizion komandirinin şəxsi heyətlə iş üzrə müavini kapitan Elxan İmranov bildirdi ki, Silahlı Qüvvələrin rəhbərliyinin idmana və şəxsi heyətə qayğısı Azərbaycan əsgərini fiziki və mənəvi cəhətdən sağlam görmək istəyindən qaynaqlanır. "Hərbi hissəmizdə hərbi qulluqçuların idmanın müxtəlif növləri ilə məşğul olması üçün geniş şərait yaradılıb. Azərbaycan əsgəri tarixini, mədəniyyətini, adət-ənənələrini yaxşı bilir, mənsub olduğu xalqın keçmişinə hörmətlə yanaşır, öz torpağının qorunması yolunda canını fəda etməkdən çəkinmir. Belə dəyərlərin təbliğ edilməsində fiziki hazırlığın da özünəməxsus yeri var".



Hərbi hissənin idman şəhərciyində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə əsgərlər arasında gərgin voleybol yarışının şahidi olduq. Yarışdan sonra şəxsi heyət digər idman hərəkətlərini də yerinə yetirdi.

Şəxsi heyətin fiziki hazırlığına nəzarət edən gizir Əli Vəliyevlə həmsöhbət olduq. Həmsöhbətim Qazax rayonunun Alpoud kəndində anadan olub və ömrünün 15 ilini bu peşəyə həsr edib. Söhbət zamanı gizir Vəliyev qeyd etdi ki, idman əsgərlərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin inkişaf etdirilməsi üçün əsas vasitədir. "İdman vərdişlərini üzə çıxarmaqla əsgərlərin hərbi vətənpərvərlik tərbiyəsinin imkanlarını müəyyənləşdiririk. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdəndir və əsgərlərin vətənpərvərlik ruhunda tərbiyəsi təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindəndir. Hazırda Silahlı Qüvvələrdə, o cümlədən hərbi hissəmizdə hərbi vətənpərvərlik hissləri aşılayan tədbirlərə, xüsusən idmana daha çox yer ayrılır. Məqsəd ondan ibarətdir ki, əsgərlər vətənpərvərlik duyğularını, milli hissləri daha yaxından dərk etsinlər".



Hərbi xidmətə Göyçaydan çağırılan əsgər Asif İsrafilzadə bildirdi ki, Silahlı Qüvvələrdə müxtəlif idman növləri üzrə keçirilən yarışlarda hərbi hissəmiz də yüksək səviyyədə təmsil olunur. "Hər zaman yarışlara birinciliyi əldə etmək həvəsilə qatılırıq. Bunun üçün əsgərlərimizin hər birindən yüksək fiziki hazırlıq və dözümlülük tələb olunur. Yüksək səviyyəli fiziki hazırlıq mütəmadi məşqlərin hesabına başa gəlir".

- Komandirlərimizin köməyi ilə bütün məşğələlərin gedişində xüsusi keyfiyyətlərin - dözümlülüyün, çevikliyin, çəldliyin inkişafına fikir verilir, - deyə əsgər Mahmud Əliyev söhbətə başladı. - Bu məqsədlə müntəzəm olaraq məşqlərdən, müasir idman vasitələrindən, trenajorlardan, maneələr zolağından, xırda idman inventarları toplusundan və digər texniki vasitələrdən istifadə edilir.

Əsgər Ayxan Abdullayevə görə, bu gün idman ordu həyatının mühüm tərkib hissəsinə çevrilib. Nizamnaməyə uyğun olaraq idmanla məşğul olmağa imkanımız var. İdmançılarımız Silahlı Qüvvələrdə təşkil edilən yarışlarda yüksək səviyyədə təmsil olunur və nailiyyətlər əldə edirlər. Bütün bu uğurlar komandirlərin idmanın inkişafına göstərdiyi diqqət və qayğının təzahürüdür.

Əsgərlərdən Mürsəl Mürsəliyev və Yasin Səməndərli bildirdilər ki, onların vətənpərvər ruhda tərbiyəsində fiziki hazırlıq da başlıca rola malikdir. Doğrudan da, fiziki cəhətdən sağlam olan hər bir əsgər, eyni zamanda, sağlam düşüncə, güclü iradə sahibi, hər bir çətinliyə sinə gərməyi bacaran döyüşçü deməkdir. Bu gün əsgərlərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, idmana marağının güclənməsi də şəxsi heyətə öz doğma Vətəninə sədaqətli xidmət etmək üçün əlverişli imkanlar yaradır.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Kursantlar müsabiqədə fəal iştirak etdilər

Bu günlərdə Azərbaycan Həmkarlar İttifaqı İcraiyyə Komitəsinin C.Naxçıvanski adına Hərbi Lisey ilə 2014-2018-ci illər üçün mədəni hamilik üzrə tədbirlər planına əsasən, bu hərbi təhsil ocağında "Vətənə xidmət edirik" inşa müsabiqəsi keçirildi. Ümumiyyətlə, belə tədbirlərin keçirilməsi Cəmşid Naxçıvanski adına Hərbi Liseydə uzun illərdir ki, ənənə şəklini alıb. Təhsil ocağının rəhbərliyi kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasını daim diqqət mərkəzində saxlayır.

Kursantlar bu dəfə də yarışda böyük həvəslə iştirak etdilər. Onlar müsabiqədə yaxşı nəticə göstərərək qalib gəlməyə çalışdılar. Bu günlərdə inşa müsabiqəsinə yekun vuruldu. Nəticələr elan olundu, qaliblər müəyyənləşdi.



Məlum oldu ki, kursant Sabir Abdullayev mövzunu daha geniş və yetərincə əhatəli yazaraq birinci yeri tutub. Kursant Məhsum Əliyev ikinci, kursant Rüfət Abdullayev üçüncü yeri tutublar. Kursant Oruc Bayramovun isə bacarığı dördüncü olmağa çatıb. Ümumiyyətlə, inşa müsabiqəsində 50-dən artıq kursant bacarığını sınayıb.

"Vətənə xidmət edirik" inşa müsabiqəsi komissiyasının sədri, ana dili və ədəbiyyat müəllimi Sevil Qurbanova söhbət zamanı dedi ki, belə tədbirlərin keçirilməsi kursantların hərbi vətənpərvərlik ruhunda böyüməsinə müsbət təsir göstərir. "İnşa mövzularını yazdıqca onların həm bilikləri, həm də yazı vərdişləri artır, təkmilləşir. Dünyagörüşləri formalaşır və yenilənir. Buna görə də belə tədbirləri tez-tez keçiririk. İnanıram ki, bugünkü yarışda qalib gələn kursantlar gələcəkdə daha böyük uğurlar qazanacaqlar".

Müsabiqədə iştirak edən kursantlardan Yusif Baqiyev, İqbal Xalidov, Nicat İsaxanov, Abbas Adıgözəlov və başqaları növbəti müsabiqələrdə daha həvəslə iştirak edəcəklərini dedilər.

Qalib kursantlar Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının rəhbərliyi tərəfindən mükafatlandırılacaq.

**Vahid MƏHƏRRƏMOV,
C.Naxçıvanski adına
Hərbi Lisey**

Ordu və cəmiyyət

# Gənclik gələcəyimizdir

*Həyatda insanların baxış bucağı fərqlidir. Hər kəs də bu baxış bucağında yaşadığı zamanın tələblərini, meyarlarını yerinə yetirməyə çalışır, ömür payının ilmələrini hörür, əməlləriylə ömrünə min cür naxış vurur. Bu naxışlar xalqına, millətinə layiqli ömür yaşananda həm göz oxşayır, həm də könül xoşluğuna dönür.*

İmran Rzayev İqtisad Universitetinin dosenti, iqtisad elmləri namizədidi. Tovuz rayonunun Xatınlı kəndində dünyaya göz açıb. Ailədə böyüklərindən daim xalqına, millətinə xeyirli övlad olmaq tövsiyələriylə böyüyüb və illəri arxada qoyaraq ömrünün 40 ildən çoxunu auditoriyalarda keçirib.

Gələcəyimizin sahibi olan gənc nəslin Vətənə məhəbbət, xalqa, milli-mənəvi dəyərlərə hörmət, sədaqət ruhunda tərbiyə olunmasına həmişə məsuliyyətlə yanaşan İmran müəllim "Gənclik gələcəyimizdir" - deyir. Həmsöhbətim ümummilli liderimiz Heydər Əliyevin "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" kəlamını özünün yaşam amalı seçib.

- Vətən borcu, Vətən sevgisi hər bir gəncin ürəyində dərin köklər salıb, - deyir. - Bütün təhsil ocaqlarında vətənpərvərlik mövzusunda müsabiqələr, tədbirlər keçirilir. Gənclərimiz hansı amal və məqsəd uğrunda yaşadıqlarını, mübarizə apardıqlarını dərk edərək Vətənimizin adını ucaltmağa çalışırlar. Yüksək mənəviyyata malik gənclərimiz torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazırdılar.

Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edib. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Həzi Aslanov, Mehdi Hüseynzadə, Əlif Hacıyev, Yusif Mirzəyev, Mübariz İbrahimov, Samid İmanov, Çingiz Qurbanov,... kimi igid və cəsur oğullarımızın fədakarlıqları gənc nəslə örnəkdir. Xalqımız qəhrəman xalqdır. Xalqımız öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib, yetişdirir və yetişdirəcək də...

İmran müəllim qardaşı Amil Rzayevin Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmasından fəxarət qarışıq kövrəkliklə danışdı. "Keçmiş Sovet ordusunda əsgər olmuşdu. Mənfur qonşularımız ərazi iddiaları ilə torpaqlarımıza basqın edəndə, Amil Azərbaycan Dövlət Pedaqoji İnstitutunda oxuyurdu. Vətən əşqiylə döyünən qəlbinin tək nigarançılığı əzəli torpaqlarımızın işğala məruz qalması idi. Dördüncü kursda oxuyanda könüllülərlə cəbhəyə getmişdi. Qarabağın müxtəlif ərazilərində Gədəbəydə, Laçında, Tovuzda döyüşmüşdü.



Az sonra zabit rütbəsi alaraq xidmətini davam etdirmişdi. Xidməti müddətində olduqca məsuliyyətli, nümunəvi, qorxmaz zabit kimi komandanlığın etimadını qazanmışdı..."

1992-ci ilin fevralında Bakıya on günlük ezamiyyətə göndərilən zabitin fikri cəbhə bölgəsində, döyüşçü yoldaşlarının yanında qalmışdı. İşlərini tez qaydasına qoyaraq geri qayıtmağa çalışırdı.

Cəbhədə vəziyyət gərgin idi. Ezamiyyətinin ikinci günü hərbi hissə ilə əlaqə saxlayarkən Ağdərə istiqamətində vəziyyətin gərginləşdiyini biləndə özünə yer tapa bilmirdi. Şeyx Şamilin bir kəlamını təkrarlayırdı: "Bizdən nəvələrimizə qalacaq ən böyük miras istiqlal və hürriyyət uğrunda vuruşmaq, yeri gələndə bu yolda şəhid olmaqdır".

Təcili xidməti yerinə qayıdır və məhz onun komandirliyi altında bir qrup hərbçi Ağdərədə ağır döyüşə atılır...

Sonuncu döyüşdə düşmənin pusqusuna düşdüklərini biləndə cəsur zabit özünü itirmədən yoldaşlarını mühasirədən xilas etməyi bacarır. Özü bu əməliyyatda şəhid olub...

Əmilin toyuna 10 gün qalmışdı. Yaşadığı qısa, lakin mənalı ömründə ən böyük sevgisiydi Vətən... Fədakar zabit ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

- Xalqımız qəhrəmanlarımızın xatirəsini daim əziz tutur, onları böyük ehtiramla yad edir. Dövlətimiz şəhid ailələrinə diqqət və qayğı ilə yanaşır, qəhrəmanların adları əbədiləşdirilir. Vətənpərvərliyin, şəhidliyin təbliğ olunması insanların, əsasən, gənc nəslin vətənpərvər ruhda tərbiyəsində əvəzsiz rol oynayır, - İmran müəllim belə deyir.

"1987-ci ildə Rostova ixtisasartırma kursuna göndərilmişdim. O zaman ermənilərin ərazi iddiaları yenicə alovlanırdı. Bu kursda ermənilər də iştirak edirdilər. Orada bu mövzuda geniş müzakirələr aparmışdıq və mən Qarabağ haqqında geniş məlumat verərək ermənilərə Qarabağa köçürülmələrinin 150 illiyi ilə əlaqədar ucaldılan abidəni xatırlatmışdım. Faktlar qarşısında deyiləcək sözləri qalmamışdı..."

Bu gün Azərbaycanın güclü orduya malik olmasından olduqca qürurluyuq. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inkişaf etdirilən ordu quruculuğu strategiyasının nəticəsi olaraq Azərbaycanda qüdrətli ordu formalaşıb.

İmran müəllim də söhbətimizdə fəxrlə bildirdi ki, 2016-cı il aprelin əvvəllərində baş verən döyüşlər ordumuzun gücünü əyani şəkildə sübut etdi və hər kəsdə ruh yüksəkliyi yaratdı. "O günlərdə yüzlərlə tələbəmiz aidiyyəti qurumlara müraciət edərək, işğal olunan torpaqlarımızın azad edilməsində əsgərlərimizlə çiyin-çiyinə olmaq istəyirdi".

İmran müəllim də zabit atasıdır. Orduda ardıcıl olaraq keçirilən "Açıq qapı" tədbirlərində də bir neçə dəfə iştirak edib. "Belə tədbirlərin keçirilməsi xalq tərəfindən çox bəyənilən hadisədir. Valideynlər övladlarının xidmət yerləri, gündəlik məişət şəraiti ilə yaxından tanış olurlar. İnanın, milli xörəklərimizin qadın aşpazlar tərəfindən hazırlanmasını görəndə sevincimi gizlədə bilmədim".

- Nəvələrim Dövlət himnini eşidən kimi əllərini ürəklərinin üstünə qoyub onu əzbərdən oxuyurlar, - deyir. - Bu, məndə o qədər qürur doğurur ki...

Azərbaycanın uğurlarının təməlində dövlət başçısının siyasətinin dayandığını danışan İmran müəllim Cocuq Mərcanlıda yaşayışın bərpa edilməsinə toxunaraq burada inşa olunan Şuşa məscidinin düşmənə ən təsirli mesaj olduğunu da vurğuladı.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Cəngi"ni Qarabağda da səsləndirəcəyik!"

*Hərbi musiqidən, musiqiçilərdən danışarkən ezamiyyətlərimizdən birində həyatini dərindən tanımaq imkanı qazandığımız hərbi orkestri də qeyd etmək yerinə düşər. "N" hərbi hissəsində olarkən musiqi sədalarını eşitdikdə mayor Rüstəm Məmmədov: - Musiqi sədaları hərbi orkestrin binasından gəlir, günün nizam qaydasına uyğun olaraq dərslər keçirilir, - dedi.*



Gözəl musiqi sədalarının ardıyca gedərək sinif otağına daxil oluruq. Orkestr ard-arda "Azərbaycan", "Qarabağ şikəstəsi", "Lalələr", döyüşə səsləyən marşlar, xarici və yerli bəstəkarların musiqilərini səsləndirərək könül oxşayır.

Dərs başa çatdıqdan sonra orkestr rəisi - dirijor, Azərbaycan Respublikasının əməkdar artisti, ehtiyatda olan polkovnik-leytenant Rafiq Hacıyevi tanımaq imkanı əldə edirik. Taleyini orduya, eləcə də musiqiyə bağlayan R.Hacıyev ömrünün hər gününün mənalı keçdiyini, həyatının geridə qalanını da bu sahəyə həsr etməyə hazır olduğunu bildirdi.

- Bu gün sıralarımızda olan hərbi musiqiçilər Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısını hiss edir. Talelərini bu yola həsr edən şəxsi heyət nəinki peşəkar ifaları, eyni zamanda bütün varlığı ilə Vətənə, torpağa bağlı olmaları ilə də seçilirlər.

Söhbətinə davam edən R.Hacıyev hərbi musiqinin vətənpərvərlik ruhunun aşılanmasında mühüm rol oynadığını, orduda aparılan mənəvi-psixoloji təbliğatın bir hissəsi olduğunu vurğuladı. Keçirilən təlimlər, aparılan mənəvi-psixoloji söhbətlər əsgərlərimizi döyüşə ruhlandırır. Hərbi musiqi isə öz sədaları ilə əsgəri cuşa gətirir. Bu da hərbi musiqinin əsas mahiyyətidir.

Ehtiyatda olan polkovnik-leytenant söhbət edərkən Osmanlı tarixindən bəhs edən, adını xatırlamadığım filmdən bir epizod canlanır gözümdə. Düşmən Osmanlı qalasına hücum edir. Hər iki ordu əldən düşür. Lakin Osmanlı ordusu yorğun olmasına, əldən düşməsinə baxmayaraq, mövqe tutduğu qaladan cəngilər səslənir, vətənpərvərlik mahnıları ucalır. Bunu görən düşmən əsgərləri qorxudan geri çəkilməyə məcbur olur.

Bu hərbi musiqinin döyüş zamanı güclü təsir qabiliyyətinə malik olduğunun göstəricisidir. Döyüş meydanında əsgər silahdırsa, hərbi musiqi silahın tətiyini sıxan qüvvədir.

Orkestrin baş çavuşu Arzu Hüseynov söhbətimizə qoşularaq bildirir ki, repertuarın əsasını Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik mövzusunda yazılmış ən yaxşı əsərləri təşkil edir. "Orkestr heyəti bacarıqlı və təcrübəli musiqiçilərdən ibarətdir. Hər birimiz hərbi ritualların, idman və mədəni kütləvi tədbirlərin musiqi ilə müşayiətini təmin etməyə hazırıq. Ən üstün cəhətimiz odur ki, hər birimiz öz vəzifəmizin öhdəsindən layiqincə gələ bilirik. Orkestrin baş çavuşu olaraq şəxsi heyətə



zəruri olan bütün məşğələləri keçir, hərbi dirijorun verdiyi əmrləri icra edir və bir neçə musiqi alətində ifa etməyi bacarıram. Həmçinin musiqi alətlərinin qorunmasını, istismar qaydalarına uyğun istifadəsini təmin edirik..."

Orkestr rəisi - dirijor Rafiq Hacıyev məşqlər zamanı "Arşın mal alan" filmindən "Gülçöhrənin ariyası"nı səsləndirən baş çavuşlar Salman və Seymur Bəhramovları bizimlə tanış edir. Söhbətimiz zamanı ata-oğul olduqlarını öyrənirik. Salman fortepiano və nəfəsli alətlərdə ifa etməklə yanaşı, orkestrin solisti kimi fəaliyyət göstərir. Oğlu Seymur Bəhramov da atasından geri qalmayaraq müxtəlif musiqi alətlərində ifa etməyi bacarır.

- Orkestrin konsert proqramlarında Azərbaycan və xarici bəstəkarların əsərlərini ifa edir, xidmətimizdə nöqsana yol verməməyə çalışırıq, - dedi baş çavuş Salman Bəhramov.

Sinif otağında "Qarabağ şikəstəsi"ni səsləndirərək könül oxşayan çavuş Ramiq Əliyev gözəl səsiylə yanaşı, sazda və klarnetdə ifa edərək öz xidmətinin öhdəsindən gəlməyə çalışır.

- Uşaq yaşlarımdan musiqiyə və hərb sənətinə marağım vardı, - o deyir. - Və bu gün özümü xoşbəxt sayıram ki, həm musiqiçi, həm də hərbçiyəm. Fəxr edirəm ki, hərbi musiqiçiyəm.

1992-1994-cü illərdə Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edən baş çavuş Əli Quliyev də musiqiçilər arasındadır. Söhbətimiz zamanı öyrənirik ki, Əli müharibə illərində də musiqiçi olub. Könüllü silaha sarılaraq döyüşüb. Döyüşlərdən sonra Qarabağ veteranı adına layiq görülüb.

- Hər birimizin tək məqsədi var, işğalda olan torpaqlarımızı azad edək, - deyir Əli. Bütöv Azərbaycanı qarış-qarış gəzərək cəngilər səsləndirək, qələbə mahnıları oxuyaq. O gün uzaqda deyil, düşmən üzərində qələbə əldə edib, Qarabağda marşlar səsləndirəcəyik.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Kursantların asudə vaxtları mənalı keçir



*Ömrünün müxtəlif çağlarında rəsm çəkmək həvəsinə düşənlər də olur. Bəzən ya karandaş, ya bir firça götürüb ətrafında seyr etdiyi heyranedici mənzərələri kətan üzərinə köçürməyə çalışır.*

*C.Naxçıvanski adına Hərbi Liseyin kursantları da asudə vaxtlarını səmərəli keçirirlər. İdmanla məşğul olur, kitab oxuyur, bəziləri isə rəsm çəkirlər. Rəsmxətt müəllimi Almaz Budaqova rəsm çəkməyə maraq göstərənlərə dəyərli məsləhətlər verir, kömək edir. Neçə illərdir ki, təhsil ocağında rəsm dərnəyi fəaliyyət göstərir. Kursantların çəkdiyi əsərlər onların mənəvi dünyalarının zənginliyindən xəbər verir. Bu gün həmin rəsmlər Hərbi liseyin dəhlizlərini, tədris otaqlarını, muzeyini bəzəyir.*

*Hərbi liseydə uzun illər rəsm dərnəyinə rəhbərlik etmiş Almaz Budaqova söhbət zamanı rəsm dərnəyinin yarandığı günlərdən söz açdı:*

- Hərbi liseydə rəsm dərnəyi 2003-cü ildən fəaliyyət göstərir. Bu illər ərzində yüzlərlə kursant dərnəyin üzvü olub. Onlar məktəbi bitirsələr də, əl işləri bu günə qədər təhsil ocağında saxlanılır və tədbirlərdə nümayiş etdirilir. Rəssamlıq incəsənətin bəlkə də ən çətin və böyük istedad tələb edən növüdür. Bu sənət insanın dünyagörüşünün formalaşmasında böyük rol oynayır. Kursantların da rəssamlığa maraq göstərməsi müəllim kimi məni çox sevindirir. Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının təşkilatçılığı ilə liseyimizdə hər ilin sonunda rəsm müsabiqəsi keçirilir. Müsabiqələrdə qalib gələn kursantlar Konfederasiya tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılır.

Kursantlar mövzu seçimində sərbəstdirlər. Bəzən isə konkret olaraq müəyyən mövzu üzrə rəsmlər çəkirlər. Xatırlayıram ki, 2003-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 80 illiyi münasibəti ilə keçirilən müsabiqədə kursantlar öz bacarıqlarını yüksək səviyyədə nümayiş etdirdilər. Nəticə ürəkaçan oldu. Gözlədiyimizdən də artıq uğurlar qazandıq. Dərnək üzvləri ulu öndər Heydər Əliyevin mənalı ömrünün müxtəlif anlarını rəsmlərdə məharətlə əks etdirmişdilər. Həmin rəsmləri biz bu gün də qiymətli bir eksponat kimi saxlayırıq.

2006-cı ildə kursantlarımız Səməd Vurğunun yaradıcılığına müraciət etdilər. Həmin il ölkəmizdə dahi şairin 100 illiyi təntənə ilə qeyd olundu. Kursantlarımız da bu təntənəyə öz rəsmlərilə töhfə verdilər.

Liseyimizin kursantları 2009-cu ildə Türkiyə dövlətinin tarixində böyük rol oynamış Çanaqqala savaşının 90 illiyinə həsr olunmuş rəsm müsabiqəsində də iştirak etdilər. Yubiley ərəfəsində sərgi keçirdik. Sərgidə Türkiyə səfirliyinin nümayəndələri də iştirak edirdilər. Qonaqlar kursantların əl işlərindən razı qaldılar və həmin rəsmlər Türkiyə səfirliyində böyük uğurla sərgiləndi. Kursantlar qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Ötən il 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə respublikanın gənc rəssamları arasında müsabiqə keçirilirdi. Müsabiqədə kursantlarımız da iştirak etdilər. İstedadlı kursant Təbriz Əzizov bu yarışmada III yeri tutdu. İnanıram ki, Hərbi liseyin kursantlarının bu uğurları davamlı olacaq.

**- Yəqin ki, kursantlar hərbi vətənpərvərlik mövzusuna da müraciət edirlər.**



- Əlbəttə. Hərbi vətənpərvərlik və qəhrəmanlıq mövzuları dərnək üzvlərinin yaradıcılığında əsas yer tutur. Hər il "Vətənə xidmət edirəm", "Torpaq bölünməz - şəhidlər ölməz" mövzularında rəsm əsərləri çəkirlər. Onların fırçalarından çıxan əsərlər peşəkar rəssamlar tərəfindən də rəğbətlə qarşılanır. Düşünürəm ki, gələcəyin zabitləri bu mövzuda rəsm çəkərkən sanki hərbi vətənpərvərlik duyğularını sözlə deyil, rənglərin gücü və qüdrəti ilə ifadə etməyə çalışır, ürək sözlərini rənglərlə pıçıldayırlar.

Azərbaycanın Milli Qəhrəmanlarından 10 nəfəri C.Naxçıvanski adına Hərbi Liseyin yetirməsidir. Kursantlarımız bu qəhrəmanların portretlərini də çəkiblər. Bu əsərlər çox uğurlu alınıb. Onlar Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu da öz rəsmlərində yaşadırlar.

**- Kursantlar üçrəngli bayrağımıza olan sevgilərini də rəsmlərində məharətlə ifadə ediblər.**

- Sevindirici haldır ki, mən də kursantlarımızla birlikdə Bayraq meydanının açılışında iştirak etdim. Qürurverici bir gün idi. Yəqin ki, bu günü heç birimiz unutmayacağıq. Hər il Bayraq Günü ərəfəsində "Bir kərə yüksələn bayraq bir daha enməz" mövzusunda rəsmlər çəkilir. Kursantlarımız müxtəlif üslub və formada rəsm əsərləri çəkərək bacarıqlarını nümayiş etdirirlər.

**- Kursantların asudə vaxtları səmərəli keçir.**

- Doğrudan da, elədir. Gördüyünüz bu rəsm əsərlərini kursantlar asudə vaxtlarında çəkiblər. Hiss edirəm ki, onlar özləri də istirahət dəqiqələrini mənalı keçirməyə həvəs göstərirlər. Təbiidir ki, qazanılan uğurlar asanlıqla əldə olunmur. Uğurlara gedən yol zəhmət və çalışqanlıqdan keçir.

**- Kursantlar tarixi mövzulara da müraciət edirlərmi?**

- Onların bu mövzuya maraqları sonsuzdur. Bu günə qədər tarixi şəxsiyyətlərdən və xalq qəhrəmanlarından Babəkin, Koroğlunun, Qaçaq Nəbinin, Xətainin, Nadir şahın, Ağa Məhəmməd şah Qacarın, Məmmədəmin Rəsulzadənin, türk dünyasının böyük oğulları Mustafa Kamal Atatürkün, Heydər Əliyevin və başqa tarixi şəxsiyyətlərin portretlərini yaradıblar. Bundan başqa onlar, həmçinin, Azərbaycanın məşhur sərkərdələrinin, generallarının, tarixi qəhrəmanlarının da portretlərini böyük həvəslə çəkirlər. Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin, Cəmşid Naxçıvanskinin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, cəsur partizan Mehdi Hüseynzadənin, eləcə də başqa qəhrəmanların portretlərinə baxanda qürur hissləri keçirirlik.

**- Kursantlara dünya və Azərbaycanın məşhur rəssamlarını tanıtdırmaq üçün hansı işlər görülür?**

- Kursantların özləri dünyanın məşhur rəssamları haqqında məruzələr hazırlayırlar. Məsələn, Leonardo Da Vinçi, Rafael, Pikasso, Salvador Dali, eləcə də Bəhruz Kəngərli, Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Vəcihə Səmədova, Maral Rəhmanzadə, Arif Hüseynov və Azərbaycan miniatür rəssamlığı haqqında mühazirələr maraqla dinlənilir.

**- Almaz xanım, ən bacarıqlı kursantlardan kimlərin adlarını çəkmək istərdiniz?**

- Dərnək üzvlərinin hamısının işindən, qabiliyyətindən razıyam. Onların hamısı mənim üçün eyni dərəcədə doğma və əzizdirlər. Amma onların aralarında elələri var ki, çox istedadlıdırlar. Belələrindən Qurban Mustafayev, Vasif Hüseynov, Paşa Paşazadə, Ramiz Əmirov, Ruslan Vahidov, Elçin Xasməmmədov, Zamin Abbasov, Qurban Nəbiyev, Eldar Cavadov, Elşad İsgəndərov, Niyaməddin Gülməmmədov, Əmiraslan Niftaliyev, Məhəbbət Yəhyazadə, Elmar Haqverdiyev, Zaur Hüseynov, İzzət Yolçiyev, Şahin Abbasov və başqalarının adlarını çəkmək ürəyimcə olardı.

**- Rəssamlıqla məşğul olmaq bu günün kursantına, sabahın zabitinə nə verir?**

- Yaradıcı iş insanın düşüncə qabiliyyətini daim artırır, dünyagörüşünü formalaşdırır, gözəl hiss və duyğular aşılayır. Elə bilirəm ki, hərbçi üçün rəssamlığı bacarmağın üstün cəhətləri çoxdur. Onlar daha diqqətli olur, ətraf mühiti daha yaxşı hiss edib dəyərləndirirlər. Hərbçinin rəssamlığı bacarmağı ona həm həyatda, həm də xidmətdə böyük üstünlüklər verir.

**Söhbəti yazdı:**
**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**



# Həmişə öndə olacaqlarına söz verdilər

"N" hərbi hissəsində olarkən Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən, hərbi xidmət müddətini başa vuran hərbi qulluqçularla görüşdük. Onlar bildirdilər ki, xidmət müddətləri başa çatsa da, yenə özlərini Vətənin müsəlləh əsgərləri hesab edirlər. "Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi hər bir vətəndaşın müqəddəs borcudur", - deyən hərbi qulluqçular hər zaman döyüşə hazır olacaqlarını qətiyyətlə bildirdilər. Xidmət etdikləri müddətdə Hərbi anda sadiq qalan, Vətənin müdafiəsində sayıq dayanan oğullar ordu həyatında mətinlik, dözüm, əyilməzlik kimi mənəvi keyfiyyətlərə nail olublar.

Mayor Rəsul Yusibov bildirir ki, onlar Vətənin fədakar, mərd, yenilməz övladlarıdır, onların Vətən, torpaq sevgisini heç nə əvəz edə bilməz.

Goranboy rayonundan olan Aslan Əkbərov uşaqlıq illərindən müharibənin dəhşətlərini görüb. Tarix boyu havadarlarından dəstək alan düşmənin çirkin niyyətlərindən xəbərdar olub. Onda Vətənə tükənməz sevgilə yanaşı, düşmənə kəskin nifrət hissi də baş qaldırıb. Tibb Universitetini bitirdikdən sonra xidmətə çağırılıb. Nümunəvi xidmətilə seçilən əsgərlər deyir:

- Mən və silahdaşlarım Vətən torpaqlarının müdafiəsində iştirak etdik. Hərbi həyata alışdıq. Ordu həyatı bizə Vətəni müdafiə etməyi, qorumağı, döyüş silahlarının sirlərini öyrətdi. Əsl kişilik, mətinlik məktəbi keçdik. Biz heç vaxt özümüzü ordudan kənarda hiss etməyəcəyik. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərə istənilən vaxt hazır olacağıq.

Elxan Həmidli isə Azərbaycan Texniki Universitetinin məzunudur. Ali təhsilini bitirdikdən sonra hərbi xidmətə çağırılıb, Sumqayıt şəhərindəndir. Ön xətdə xidmət edib. Səngər həyatından ayrılsa da, yenə döyüşçülər sırasına qayıtmağa hazır olduğunu deyir:

- Vətənimizin hər bir guşəsi bizə doğma və əzizdir. Qədim şeir, sənət diyarı sayılan bu yerlər bizə daha da doğmalaşdı. Vətən keşiyində durmaq şərəfini yaşadıq. Ordu həyatında əsl dostluğun, qardaşlığın nə olduğunu öyrəndik. Bu dostluğumuz, qardaşlığımız həmişə davam edəcək.

Murad Hacıyev də xidmətdə həmişə fərqlənib. Komandanlıq tərəfindən fəxri fərmana, qiymətli hədiyyələrə layiq görülüb. Ordumuzun qüdrətli inkişafından qürur hissi keçirdiyini deyən Murad Hacıyev Silahlı Qüvvələrimizin düşmən ölkənin ordusundan qat-qat güclü olduğunu diqqətə çatdırır. Bildirir ki, biz əsgər olaraq xalqımızın əsas arzusunun reallaşması üçün döyüşlərə hazır olacağıq.

Həmsöhbət olduğumuz digər əsgərlər də silahdaşları ilə həmrəy olduqlarını bildirdilər. Qeyd etdilər ki, onlar da Vətənin çağırışına həmişə hazırdırlar.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**



# Əsgər anasının məktubu

Canım oğlum... Əsgər oğlum... Məktubunu "Azərbaycan Ordusu" qəzetində oxudum. Kövrəldim də, duyğulandım da, qürurlandım da. Nə danım, göz yaşlarım üzümü yandırdı da.

Yazdığın kəlmələr elə bil ruhumu sığallayır. Bu məktubu təkcə mən yox, minlərlə Azərbaycan vətəndaşı da oxuyub yəqin. Yəqin ki, çoxlarının ruhuna hopub. Atanla birlikdə üzüm çardağının altında oxuduğum məktubuna cavab yazmaq qərarına gəldim.

İlk dəfədir səndən bu qədər uzun müddətdə ayrı düşmüşük. Bu, ana üçün o qədər də asan deyil. Elə bil qəlbimdə bir ocaq qalanıb. Ancaq Vətəni qorumağın könlümə bir təsəllidi. Bilirsən, oğlum, sən Allahın bizə verdiyi həm paysan, həm də əmanət. Valideynlərin borcu bu əmanəti layiqincə qorumaqdı. Məqamı yetişdi ki, qoruduğum, nəvazişlə, vətənpərvərlik duyğuları ilə, əsl vətəndaş kimi böyütdüyüm, Allahın mənə əmanəti olan oğlumu - səni Ordumuza həvalə etdim. Ona görə ki, bu torpağı Azərbaycan övladı, Azərbaycan gənci, Azərbaycan əsgəri qorumalıdı. Bu gün sənin də öhdənə düşüb Vətənin keşikçisi olmaq!

Unutma, sən torpaqlarımızın bütövlüyü uğrunda vuruşmuş bir atanın oğlu olmaqla yanaşı, qazi olmuş bir əminin qardaşı oğlusan. Unutma, sən Vətənin bölünməzliyi və bütövlüyü uğrunda vuruşmaq üçün oradasan. Əsgər yoldaşlarınla xoş davran, komandirlərinin əmrlərinə sözsüz əməl et.

Unutma ki, orada, anasız-atasız əsgər qardaşların da var... Bəlkə də elə əsgər var ki, onu heç kim gözləmir. Vətən hamınızdan çox şeylər gözləyir, oğlum, unutmayın... Onu da unutmayın ki, qələbə sizin birliyinizdən, bir-birinizə sevginizdən, dövlətimizə, xalqımıza məhəbbətinizdən də qaynaqlanır.

Mənə deyirlər ki, cavan yaşda əsgər anası oldun. Bəli, səni hərbi formada görmək mənə də nəsib oldu. Andiçmə mərasimində oğlunu əsgərlərin sırasında görmək ana üçün elə bir hisdir ki, onu sözlə ifadə etmək olmur. Arzu edirəm, bütün analarımız bu hissi yaşasınlar. Onda anladım və gözlərindən oxudum ki, öhdənə düşən borcunu layiqincə yerinə yetirəcəksən. O gözlər mənə dedi ki, narahat olma, ana, mən bu gün Azərbaycan vətəndaşı kimi, Azərbaycan Ordusunun əsgəri kimi Vətən qarşısında bütün həyatımı, bütün varlığımı qurban verməyə, atamın, əmimin yolunu getməyə hazıram. Bu fikirləri təkcə sənin deyil, bütün gənc əsgərlərin gözlərində oxudum. Arxayın oldum ki, sizlərin timsalında Vətənin keşiyində duran, bizləri hər an canıyla, qanıyla müdafiə etməyə hazır olan oğullarımız var!

Ona görə sevinirəm ki, sən güclü bir ordunun əsgərisən. Həmin tədbirdə gördüklərim məni bir ana kimi çox rahatlandırdı. Məişət şəraitinizlə, yeməkxananızla, yataqxananızla tanışlıqdan sonra necə narahat ola bilərəm. Azərbaycan Ordusu bu gün dünyanın güclü orduları sırasındadır, müasir standartlara uyğun formalaşıb. Ona görə də bu baxımdan çox rahatam, oğlum. Mənim narahatlığım, əslində, torpaqlarımızın hələ işğal altında olmasından irəli gəlir. Hər birinizin borcu bu torpağı işğaldan azad etmək, əzəli və əbədi torpaqlarımızda qalib əsgər olmaqdır. Şuşa, Xankəndi, Ağdam, Füzuli... işğal olunmuş bütün torpaqlarımız sizləri gözləyir. Arzumdur ki, qalibiyyət bayrağını əzəli torpaqlarımıza sancan əsgərlərin arasında sən də olasan, oğlum.

Ruslan, bacın deyir ki, qonşumuzun qızı da səni tez-tez soruşur. Onun da gözlərindən hiss etdim ki, səni mənim qədər o da səbirsizliklə gözləyir. Anası da hərdən səninlə maraqlanır. İndi başa düşürəm ki, səni niyə qapıdakı tut ağacımızdan, daş hasardan aşağı salmaq mümkün olmurdu. Niyə qonşunun qızı dərsin yerini öyrənmək adı ilə bizə gəldi. Axırıncı dəfə qızın qardaşının toyunda sevgi baxışlarının da şahidi olmuşdum. Özümü o yerə qoymamışdım. Gözəl qızdı, oğlum. Həm gözəl qızdı, həm də ağıllı. Atanla razılaşmışıq, gələn kimi səni nişanlayacağıq.

Mənə elə gəlir ki, dünyanın ən xoşbəxt anası mənəm. Ən başlıcası, mən əsgər anasıyam. Ona görə xoşbəxtəm ki, məni qoruyanların sırasında mənim oğlum da var. Əslində, özümü ömrünü torpaqlarımızın bütövlüyü üçün yaşayan bütün oğullarımızın anası hesab edirəm. Ona görə də sənin simanda bütün əsgər yoldaşlarının gözlərindən öpürəm... Çox sağ ol ki, mənə belə xoşbəxtlik yaşadırsan.

Ümummilli lider Heydər Əliyev deyirdi ki, hərbi xidmət şərəfli işdir. Bu peşə dünyada olan bütün peşələrdən şərəflidir - Vətəni, xalqı, torpağı qorumaq peşəsidir. Əziz əsgər balalarım, ona görə də siz yüksək hörmətə layiqsiniz.

Bu məktubu Ana Vətəni qoruyan oğulların anasının adından yazıram.

## Hərbi ənənələr, yeniliklər

# Marauder zirehli transportyoru



Cənubi Afrikanın Paramount Group şirkətinin istehsalı olan minaəleyhinə zirehli Marauder transportyoru piyadaları daşıyan avtomobilləri müşayiət etmək üçün nəzərdə tutulub. Zirehli maşın əldəqayırma bombalardan və terror hücumlarından qorunmaq üçün etibarlıdır. Ümumi çəkisi 14,5 ton, heyəti isə iki nəfərdən ibarətdir. Bununla yanaşı, tam təchiz olunmuş səkkiz nəfər desantı da daşıya bilər. Əlavə olaraq maşında hava kondisioner sistemi, kütləvi qırğın silahından qorunmaq üçün mühafizə sistemi, köməkçi güc qurğusu, qaldırıcı mexanizm və müxtəlif silahlanma sistemi mövcuddur. Marauder maşını müasir, hamar və ikiqatlı gövdəyə malikdir.

Yeni maşın turel qurğusu üzərində iriçaplı pulemyot və qumbaraatan, tankəleyhinə idarəolunan raket və kiçik habaritli topları daşıya bilər. Maşının uzunluğu 5511 mm, eni 2300 mm, hündürlüyü 2500 mm-dir. Şose yolda maksimal sürəti saatda 120 kilometr təşkil edir. Xəndək və su maneələrini dəf edə bilir. Mühərrikinin gücü 240 at gücündədir.



Maşının oturacaqlarının partlayışa davamlı olması döyüşçüləri güclü partlayışdan qoruya bilir. Marauder zirehli maşını radiopartlayıcı vasitələrə qarşı bloka salınıb. Əgər Mauraderə hər hansı partlayıcı qurğu bərkidilibsə, o zaman partlayış baş verməyəcək. Maşında müasir iqlim nəzarət sistemi də quraşdırılıb, burada olan temperatur həmişə sürücü və sərnişinlərin tələblərinə cavab verir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Çinə məxsus hərbi gəmi Yaponiya sularına daxil olub



İyulun 2-də səhər saatlarında Çinə məxsus hərbi-kəşfiyyat gəmisi müəyyən müddət ərzində Yaponiyanın ərazi sularına daxil olub.

Yaponiya dəniz qüvvələrinin patrul təyyarəsi həmin gəmini Hokkaydo və Aomori prefekturaları arasında, Tsuqaru boğazında şərq istiqamətində hərəkət edərkən qeydə alıb.

Bundan sonra, təqribən saat 10:40-da həmin gəmi Hokkaydo yaxınlığında yapon sularına daxil olaraq burada şərq istiqamətində yoluna davam edib. Gəminin həmin ərazini 90 dəqiqə sonra tərk etdiyi bildirilir.

Məlumatda əlavə olaraq qeyd edilir ki, beynəlxalq hüquq hərbi-dəniz qüvvələrinə məxsus gəmilər də daxil olmaqla, bütün gəmilərə dinc məqsədlə xarici dövlətlərin ərazi sularından keçməsinə icazə verir.

### Misir ordusu Sinayın şimalında terrorçuların tunelini məhv edib



Misir ordusu Sinay yarımadasının şimalında yerləşən terrorçuların istifadə etdiyi tuneli məhv edib. Bu barədə Misir Silahlı Qüvvələrinin rəsmi nümayəndəsi Tamer al-Rifai məlumat verib.

Onun sözlərinə görə, əməliyyat zamanı 2 terrorçu saxlanılıb. Bununla yanaşı silah və sursat, iki nəqliyyat vasitəsi (motosikl) və narkotik maddələr aşkar olunub.

### Türkiyə bayrağı altında üzən gəmi Egey dənizində atəşə tutulub




Türkiyə bayrağı altına üzən "M-V ACT" adlı quru yük gəmisinə Egey dənizində Yunanıstanın sahil mühafizə qüvvələri tərəfindən atəş açılıb.

Rəsmi məlumata görə, gövdəsinə 16 mərmi dəyən gəmi dayanmayaraq özünü Türkiyənin ərazi sularına çatdırıb.

Türkiyənin Xarici İşlər Nazirliyi hadisədən təəssüfləndiyini ifadə edib. Nazirlik insidentlə bağlı açıqlamasında Kipr adasına dair problemin müzakirə olunduğu bir vaxtda İsgəndəriyyə və İzmit limanları arasında hərəkət edərək Rodos adası yaxınlığında lövbərdə olan gəminin atəşə tutulmasını ilk növbəti insan həyatına təhlükə yaradan hadisə kimi qınayaraq ümid etdiyini bildirib ki, gələcəkdə belə hallar təkrarlanmayacaq.

### Cənubi Koreya prezidenti təhlükəsizlik şurasının təcili iclasını çağırıb



Cənubi Koreya prezidenti Mun Ce-in Şimali Koreyanın bu gün növbəti ballistik raket buraxılışından sonra təhlükəsizlik şurasının təcili iclasını çağırıb.

Yonhap agentliyi bildirir ki, iclasda Şimali Koreyanın növbəti raket təxribatına qarşı hansı addımların atılması məsələsi müzakirə olunacaq.

Qeyd edək ki, iyulun 4-də səhər yerli vaxtla 9:40-da Şimali Koreyanın Pyonqan vilayətindən Yapon dənizi istiqamətində növbəti ballistik raket buraxılıb. Raketin 40 dəqiqə ərzində 930 kilometr məsafəni qət etdiyi bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Səlimov Bəxtiyar Musa oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 301
Nüsxə 4600